*Almaya həsr olunur*

*Həyat komediyadır. Onu ciddi oynamaq lazımdır.*
*Aleksandr Kojev*[1]

[1] Rus-fransız mənşəli yeni hegelçi filosof – (bu və sonrakı qeydlər tərcüməçiyə məxsusdur.)

# 1

Onun haqqında çoxdan cürbəcür şayiələr gəzirdi. Kimisi onun Afon dağlarının ətəklərindəki monastıra çəkilib daşların, kərtənkələlərin arasında dua etdiyini deyir, kimisi də onu Sotoqrandedəki imarətdə, kokaindən xumarlanmış manekenlərin əhatəsində vurnuxduğuna and-aman edirdi. Onun izinə Şarja aeroportunda, Donbas milisinin baş qərargahında, Moqadişonun xarabalıqlarında rast gəldiklərini iddia edənlər də vardı.

Vadim Baranov çarın məsləhətçisi vəzifəsindən istefa verəndən sonra onun barəsindəki söz-söhbətlər nəinki səngimədi, əksinə, daha da çoxaldı. Hərdən belə də olur. Hakimiyyətdə olanların əksəriyyəti öz şan-şöhrətlərini tutduqları vəzifəyə borcludur. Vəzifə əllərindən çıxan kimi sanki tıxacları atır. Əyləncə parklarının girişindəki üfürmə kuklalar kimi boşalıb yapışırlar. Küçədə qabağımıza çıxırlar və vaxtilə oturub-durub belə bir adamla niyə maraqlandığımızı heç cür başa düşə bilmirik.

Baranov isə başqa qəbildən idi. Əslinə qalsa, bunun necə bir qəbil olduğunu da deyə bilməyəcəyəm. Şəkillər-

də iri-miri, amma atletik bədən quruluşu olmayan, həmişə tünd rənglərdə və əyninə bir az böyük kostyumlar geyinən bir kişi görürdük. Adi, bəlkə də bir az uşaqyana üzü, solğun dərisi və ilk Yevxaristiya ayininə girən oğlanlar kimi vurulmuş qara, dümdüz saçları vardı. Qeyri-rəsmi çevrədə çəkilmiş bir videoda o, gülən yerdə düşmüşdü ki, bu da Rusiyada nadir şeydir, çünki orada gülmək başıboşluq kimi qəbul olunur. O, xarici görünüşünə qətiyyən əhəmiyyət verməyən adam təəssüratı oyadırdı. İşinin məhz bundan ibarət olduğunu nəzərə alsaq, bu, qəribə xüsusiyyətdir, onun işi isə güzgüləri dairəvi düzərək qığılcımı sehrə çevirməkdir.

Baranov müəmmalarla dolu həyat yolu ilə addımlayırdı. Onun haqqında az-çox əmin olduğumuz bir şey vardısa, o da çara təsir göstərə bilməyi idi. Vəzifədə olduğu on beş ildə o, çarın hakimiyyətinin qurulmasına həlledici təsir göstərmişdi.

Onu "Kremlin sehrbazı", "Yeni Rasputin" adlandırırdılar. O vaxtlar dəqiq müəyyən edilmiş rolu yox idi. Gündəlik işlər tamamlandıqdan sonra prezidentin kabinetində peyda olurdu. Onu katiblər xəbərdar etmirdilər. Ola bilsin ki, çar özü onu birbaşa telefonla çağırırdı. Bəlkə də hamının ağızdolusu danışdığı, amma heç kəsin nədən ibarət olduğunu dəqiq bilmədiyi heyrətamiz istedadı sayəsində dəqiq vaxtı özü təxmin edirdi. Bəzən onlara bir nəfər də qoşulurdu. Məsələn, məşhur nazir və ya hansısa dövlət şirkətinin müdiri... Amma nəzərə alsaq ki, Moskvada ümu-

miyyətlə və əsrlər boyu heç vaxt heç kimin ağzından bir söz çıxmır, hətta bu təsadüfi şahidlərin iştirakı da çarın və onun müşavirinin gecə fəaliyyətini işıqlandıra bilmirdi. Lakin bəzən bu görüşlərin nəticələri barədə insanlara məlumat verilirdi. Məsələn, bir səhər Rusiya yuxudan oyanır və ölkənin ən varlı, ən tanınmış, hətta yeni kapitalist sisteminin siması olan iş adamının həbs olunduğunu öyrənir. Başqa vaxt federasiyaya daxil olan bütün respublikaların xalq tərəfindən seçilən dövlət başçılarının vəzifədən azad edildiyindən xəbər tutur. İndən belə onları yalnız çar özü seçəcək, deyə ilk səhər xəbərləri yarıyuxulu vətəndaşlara məlumat verir. Ancaq əksər hallarda bu yuxusuz gecələrin nəticələri görünməz qalırdı. Yalnız illər sonra həmin dəyişikliklərin tamamilə təbii göründüyü, əslində isə diqqətlə görülmüş bir işin nəticəsi olduğu ortaya çıxırdı.

O vaxt Baranov çox ağıryana idi, heç yerdə görünmür, müsahibə verməkistəmirdi. Bununla belə, onun özünəməxsus bir xüsusiyyəti var idi. Arabir hansısa elə də tanınmayan müstəqil jurnalda qısa bir esse və ya ordunun yüksək dairələri üçün nəzərdə tutulmuş hərbi strategiya araşdırması dərc etdirir, bəzən isə əsl rus ədəbiyyatı ənənələrinə uyğun olaraq təzadlı üslubunu ən yaxşı şəkildə göstərən hekayə yazırdı. Bu mətnləri heç vaxt öz adı ilə imzalamaz, amma onları Kremlin yuxusuz gecələrindən doğmuş yeni dünyanı şərh edən eyhamlarla doldurardı. Hər halda, Moskvanın saray əyanları və xarici səfirliklər o yazıları belə görür və Baranovun üstüörtülü ifadələrinin

şifrəsini hamıdan qabaq çözmək üstündə bir-biri ilə rəqabət aparırdılar.

Belə hallarda gizlənmək üçün seçdiyi Nikolas Brandeys təxəllüsü sonradan daha çox çaşqınlıq yaradırdı. Kitab qurdları Baranovun bu təxəllüsü Yozef Rotun ikinci dərəcəli romanının kiçik personajından götürdüyünə əmin idilər[1]. Tartar kimi, bir növ *"deus ex machina"*[2] kimi hekayənin ən həlledici məqamlarında peyda olub, sonra dərhal qeybə çəkilirdi. "Nəyisə əldə etmək üçün güc tələb olunmur, – o deyirdi, – hər şey çürüyür və təslim olur, amma buraxmaq, öz axınına buraxmaq lazımdır, vacib olan budur". Beləliklə, Rotun qəhrəmanları bütün nailiyyətlərini misilsiz laqeydliyinə borclu olan Tartarın hərəkətlərindən baş çıxara bilmədiyi kimi, Kremlin ali məqam şəxsləri və ətrafındakılar da Baranovun fikirlərini, dolayısı ilə Çarın niyyətlərini üzə çıxaracaq ən kiçik ipucu arxasınca düşürdülər. Kreml sehrbazı plagiatın tərəqqinin əsası olduğuna inandığından, onların işi lap çətinləşirdi: elə buna görə də onun öz fikirlərini ifadə etdiyini, yoxsa başqasının fikirləri ilə oynadığını heç vaxt tam ayırd etmək olmurdu.

---

[1] Yozef Rot (1894-1939) – yəhudi əsilli Avstriya yazıçısıdır. Birinci Dünya müharibəsindən sonra Avropa cəmiyyətindəki sosial dəyişiklikləri və siyasi qütbləşməni təsvir edən "Rechts und Links" (alm. "Sağlar və sollar", 1929) əsəri nəzərdə tutulur.

[2] *Deus ex machina* (lat. "maşından gələn tanrı" kimi tərcümə olunur. Ədəbiyyatda və teatrda bir hekayənin və ya süjetin qəfil və süni şəkildə həll olunması üçün xaricdən gələn müdaxiləni təsvir edir. *Rechts und Links* əsərində Tartar personajı möhtəşəm yalan və ya paradoksal düşüncə təqdim edən bir şəxsiyyətdir, onun fikirləri və hərəkətləri, əsərin baş qəhrəmanlarının (və ya ümumilikdə cəmiyyətin) həyatı üzərində qəribə təsir yaradır.

Bu qeyri-müəyyənlik bir qış axşamı ən yüksək şöhrət həddinə çatdı. Həmin axşam bahalı maşınlar polis sirenləri və cangüdənlərin müşayiəti ilə bir aktlı pyesə tamaşa etmək üçün kiçik avanqard teatrına axışmışdı. Tamaşanın müəllifinin adı isə Nikolas Brandeys idi. Bankirlər, neft maqnatları, nazirlər, Təhlükəsizlik Xidmətinin generalları boyun-başları sapfir və yaqut zinətlərlə dolu olan məşuqələri ilə birgə növbəyə durmuşdular ki, bu vaxta qədər varlığından xəbərləri olmadığı teatrın işlənməkdən sürtülmüş stullarına oturub, əvvəlindən axırına kimi elə bankirlərin, neft maqnatlarının, nazirlərin və Təhlükəsizlik Xidmətinin generallarının qəribəliklərini və mədəni iddialarını lağa qoyan tamaşaya baxsınlar. “Sivil ölkədə vətəndaş müharibəsi başlayardı” pyesin qəhrəmanı tamaşanın bir yerində belə deyir, – “amma bizdə vətəndaş yoxdur, ona görə də nökərlər arasında müharibə olacaq. Bu, vətəndaş müharibəsindən pis deyil, amma bir az daha iyrənc, daha rəzildir”. Həmin axşam Baranov tamaşa zalında gözə dəymədi, lakin bankirlər və nazirlər yenə də işlərini bərk tutub var gücləri ilə alqışladılar: bəziləri iddia edirdi ki, müəllif lojanın sağ tərəfindəki kiçik, girdə pəncərədən parteri izləyir.

Lakin hətta bu uşaqsayağı əyləncələr də Baranovun təşvişinə çarə olmamışdı. Elə bir vaxt gəldi ki, onunla görüşmək imkanı olan tək-tük insan da onun getdikcə qəm dəryasına daha çox batdığını müşahidə etməyə başlamışdı. Onun nigaran, yorğun olduğunu deyirdilər. Başqa şeylər

haqda düşünürdü. Siyasətə çox erkən başlamışdı və indi darıxırdı. Ən çox da özündən ötrü. Bir də Çardan. Çar isə əksinə, qətiyyən darıxmırdı. Amma Baranovun darıxdığını hiss edir və ona nifrət etməyə başlayırdı. “Necə yəni, səni bu yerə qədər gətirib çıxartmışam, indi darıxmağa necə hünərin çatır?” Siyasi əlaqələrin sentimental tərəflərini heç vaxt gözardı etmək olmaz.

Ta ki, bir gün Baranov qeybə çəkildi. Kremldən verilən qısa məlumatda Rusiya Federasiyası Prezidentinin siyasi müşavirinin istefaya getdiyi açıqlanırdı. Vaxtaşırı dünyanın bir ölkəsində peyda olmağını nəzərə almasaq – çünki bunu heç vaxt heç kəs təsdiqləməmişdi – o vaxtdan sonra Baranov ilim-ilim itdi.

Bir neçə il sonra mən Moskvaya gələndə Baranovun xatirəsi iri cismindən ayrılaraq məchul kölgə kimi havada uçur, hər dəfə Kreml hansısa əlahiddə qaranlıq qanunu elan etmək istəyəndə Baranova işi düşür və kölgə sərbəst şəkildə orada-burada özünü göstərə bilirdi. Nəzərə alsaq ki, Moskva – yeni dövrün heç kəsin başa düşə bilmədiyi müəmmalı paytaxtı – gözlənilmədən siyasi səhnənin önünə çıxmışdı, Kremlin keçmiş sehrbazının hətta bizim, yəni xaricilərin də arasında şərhçiləri vardı. BBC jurnalisti sənədli film çəkib Baranovu avanqard teatr hiylələrini siyasətə gətirməkdə ittiham etmişdi. Onun bir həmkarı isə kitab yazıb Baranovu bir çırtmayla insanları və partiyaları meydana çıxarıb yox edən fokusçu kimi təsvir etmişdi. Bir professor ona “Vadim Baranov və saxta demokratiyanın

ixtirası" adlı monoqrafiya həsr etmişdi. Hər kəs onun son fəaliyyəti ilə maraqlanırdı. O, hələ də Çara təsir göstərə bilirdimi? Ukrayna müharibəsində hansı rolu oynamışdı? Planetin geosiyasi balansına bu qədər təsir göstərən təbliğat strategiyasının hazırlanmasına nə kimi töhfə vermişdi?

Şəxsən mən bu boşboğazlıqları laqeydliklə izləyirdim. Ümumiyyətlə, ölülər məni həmişə dirilərdən çox cəlb edib. Bu dünyada özümü tapa bilmirdim, sonra müasirlərimin yanında sıxılmaqdansa, vaxtımın çoxunu ölülərlə keçirə biləcəyimi kəşf etdim. Buna görə də ilin-günün bu vaxtında, başqa yerlərdə olduğu kimi, Moskvada da vaxtımın çoxunu kitabxanalarda, arxivlərdə, restoranlarda və kafelərdə keçirirdim. Ofisiantlar isə məni tək görməyə yavaş-yavaş öyrəşirdilər. Köhnə kitabları vərəqləyir, solğun qış günlərində gəzişir, Seleznevskaya küçəsinin hamamlarının buxarında yenidən doğulurdum. Axşamlar isə Kitay-Qorodda kiçik bir bar istirahətin və unutqanlığın qapılarını üzümə səxavətlə açırdı. Mənə bəzi düşüncələrimə yoldaş ola biləcək potensial müttəfiq kimi görünən əzəmətli bir kabus, demək olar ki, hər yerdə mənimlə qoşa addımlayırdı.

Yevgeni Zamyatin XX əsrin əvvəllərində, qaraçıların və at oğrularının yaşadığı kənddə anadan olmuş, 1905-ci il inqilabında iştirak etdiyinə görə Çar hökuməti tərəfindən həbs olunaraq sürgünə göndərilmiş yazıçı idi. Hekayələri ilə məşhurlaşan Zamyatin eyni zamanda İngiltərədə gəmi mühəndisi olmuş və orada buzqıran gəmilər inşa etmişdi.